www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 dekabr 2014-cü il Çərşənbə № 313 (6012) Qiyməti 40 qəpik

**Xəbər**

## Şüvəlanda qardaş bacısını boğub öldürdü

yazısı səh.14-də

**Gündəm**

### Müxalifət bələdiyyə seçkilərinin saxtakarlıqla keçirildiyini bəyan etdi



**İsa Qəmbər:** "Seçici siyahılarında mənə qədər cəmi 3-4 nəfərin imzası var idi, amma yeşiklərdə xeyli bülleten vardı"; seçki ilə bağlı video aranı qatdı; jurnalistə hücum edib kamerasını əlindən almağa, özünü döyməyə cəhd göstərdilər

yazısı səh.3-də

### Müsavatdan ikinci dəfə qovulan şəxs danışdı

yazısı səh.7-də

### İrəvana enən təyyarədə 4 hüquq mühafizə orqanı əməkdaşı var imiş

yazısı səh.9-da

### Qiyam olan kolondakı siyasi məhbuslarla əlaqə saxlamaq mümkün olmur

yazısı səh.7-də

### Müxalifətin birliyini istəyənlər və istəməyənlər bəlli olur

yazısı səh.9-da

### Azərbaycan gələn il hərbi sahəyə 4,2 milyard dollar ayırıb

yazısı səh.5-də

### Əyalət müxalifətinin liderləri 2015-ci ilə nikbin baxır

yazısı səh.4-də

*Mehdi Mehdiyev:*

### "İndi də bilmirəm məni niyə həbs etmişdilər"

yazısı səh.13-də

### Ağcabədidə azan qadağasına reaksiya gəldi

yazısı səh.2-də

### Nazir 30 min adama mənzil vəd etdi

yazısı səh.12-də

### Kredit faizləri aşağı salınacaq

yazısı səh.12-də

### Yeni il süfrəsi neçəyə başa gələcək?

yazısı səh.15-də

## Dünyanı lərzəyə salan ordu içərisindən dağılır

# AZƏRBAYCANLILAR İŞİD-İ PARÇALAYIR - FAKTLAR

Terror təşkilatına qoşulan azərbaycanlılar Əbu Bəkr əl-Bağdadiyə qarşı çıxdılar; Azərbaycandan "cihada" gedənlər yanıldıqların başa düşməyə başlayıb və silahı indi başqa istiqamətə çevirirlər; ekspert: "Azərbaycan xalqı heç vaxt radikallığa meylli olmayıb..."




yazısı səh.5-də

## İlin ən önəmli 10 hadisəsi - nələr yaşadıq, nələr gördük...

2014 Azərbaycan üçün ziddiyyətli hadisələrlə zəngin oldu, böyük təlatümlər qeydə alınmasa da, ölkəmizə və cəmiyyətimizə yönəlik köhnə-yeni təhdidlər növbəti ilə adlayır...

yazısı səh.3-də



### Rəsul Quliyev dövlət çevrilişi ittihamından danışdı

yazısı səh.12-də



*Zahid Oruc:*

### "Biz bilirik ki, o tezislər hansı kabinetlərdə verilir"

yazısı səh.8-də



*Mehman Əliyev:*

### "Azərbaycanın bunun qarşısını almağa nə gücü çatır, nə də..."

yazısı səh.9-da

24 dekabr 2014



## Putin Azərbaycan prezidentini təbrik etdi

**Bu gün Azərbaycan prezidenti İlham Əliyevin doğum günüdür. Prezidentin 53 yaşı tamam olur. İ.Əliyev 1961-ci il dekabrın 24-də-də Bakı şəhərində anadan olub. 1967-1977-ci illərdə Bakıda orta məktəbdə oxuyub. 1977-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutuna (MDBƏİ) daxil olub. MDBƏİ-ni bitirdikdən sonra institutun aspiranturasına qəbul edilib, 1985-ci ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi dərəcəsi alıb.**

1985-1990-cı illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunda müəllim işləyib. 1991-1994- cü illərdə özəl biznes sahəsində çalışıb. 1994-cü ildən 2003-cü ilin avqustunadək Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti olub. İki dəfə -1995 və 2000-ci illərdə Milli Məclisə seçilib. 2003-cü ildə baş nazir vəzifəsinə təyin edilməsi ilə əlaqədar olaraq deputat səlahiyyətlərinə xitam verib.

2003-cü il avqustun 4-də Milli Məclis tərəfindən təsdiq edildikdən sonra baş nazir təyin edilib.

2003-cü il oktyabrın 15-də Azərbaycan prezidenti seçilib. 2003-cü il oktyabrın 31-də vəzifəsinin icrasına başlayıb. 2008-ci və 2013-cü illərdə yenidən prezident seçilib.

Dekabrın 23-də Rusiya Federasiyasının dövlət başçısı Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi ad günü münasibətilə təbrik edib.

**V.Putinin təbrik məktubunda deyilir:**

"Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq, dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar və nailiyyətlər arzu edirəm.

Bizim aramızda yaranmış, etimada əsaslanan dostluq münasibətlərini yüksək qiymətləndirirəm. Ümidvaram ki, Rusiya və Azərbaycan xalqlarının rifahı naminə konstruktiv dialoqumuz və səmərəli birgə işimiz davam edəcək.

Sizə və ailənizə hörmətimi və ən xoş arzularımı bildirirəm".

## President Ziya Bünyadov prospektinin açılışında iştirak etdi

**Azərbaycan Respublikasının prezidenti İlham Əliyev dekabrın 23-də Bakının Ziya Bünyadov prospektinin yenidən qurulmasından sonra açılışında iştirak edib. «AzərTAc» bildirir ki, prezident prospektin yenidən qurulması layihəsi əsasında yolun hazırkı texniki göstəricilərini əks etdirən stendə baxıb. Nəqliyyat naziri Ziya Məmmədov həyata keçirilən yenidənqurma işləri barədə dövlət başçısına məlumat verib.**

Ziya Bünyadov prospektinin təmir və yenidənqurma işlərinə ötən ilin may ayından başlanıb.

Dekabrın 23-də prezidenti İlham Əliyev, Azərbaycanın birinci xanımı, "Bakı 2015" Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva ailə üzvləri ilə birlikdə "Baku Sport City"də, Su İdmanı Sarayında və Dövlət Bayrağı Meydanının ərazisində həyata keçirilən inşaat işlərinin gedişi ilə tanış olublar.

"Baku Sport City" ərazisində su polosu, çimərlik voleybolu və futbolu, basketbol yarışları üçün qurğular inşa edilir. Ərazidə eyni zamanda iclas və konfrans zalları, mətbuat üçün çəkiliş sahəsi, eləcə də avtomobil dayanacağı və digər xidmət sahələrinin də yaradılması nəzərdə tutulur.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva meydanın ətrafında yaradılan yeni mədəniyyət və incəsənət obyektləri, o cümlədən sərgi salonlarında aparılan tikinti işlərinə baxıblar, ictimai yerlər və xiyabanlar, insanların rahatlığı və istirahəti üçün yaradılan gəzinti yerlərində yenidənqurma və təmir işlərinin gedişi ilə tanış olublar.

## İlham Əliyev tapşırıq verdi: kredit faizləri aşağı salınacaq

**Mərkəzi Bank kredit faizlərinin aşağı salınması istiqamətində real tədbirlər görməli olacaq. Bu tələb prezident İlham Əliyevin fərmanında - 2015-ci ilin dövlət büdcəsi haqqında qanunun tətbiqi barədə fərmanda yer alır.**

Prezident Mərkəzi Banka kommersiya banklarının kreditləri üzrə faiz dərəcələrinin aşağı salınmasını, həmin dərəcələrlə Mərkəzi Bankının uçot dərəcəsi arasında fərqin azaldılması istiqamətində əməli tədbirlər görməyi tapşırıb.

Mərkəzi Bankının uçot dərəcəsi 3,5 faizdir. Ancaq ölkə üzrə kreditlərin orta illik faiz dərəcəsi 14,3, istehlak kreditləri üzrə faiz dərəcələri illik 18, təminatsız kreditlərin orta illik faiz dərəcəsi isə 35 faiz təşkil edir.

### ELAN

**24 dekabr 2014-cü il tarixdə saat 12.00-da Müsavat Partiyasının mərkəzi qərargahında bələdiyyə seçkilərinin nəticələrinə dair mətbuat konfransı keçiriləcək.**

**KİV-lər, bələdiyyə üzvlüyünə namizədlər və ictimaiyyət nümayəndələri dəvətlidirlər.**

# Yazarlar 2014-ü qiymətləndirdilər

**Zamin Hacı:** "Bu ili biz itirmişik, heyf olub"

**Elnur Astanbəyli:** "Getsin, bir də gəlməsin"



**2014-cü ilin son günlərini yaşamaqdayıq. Hər sahə üzrə ayrı-ayrı mütəxəssislər ötən ili qiymətləndirməklə məşğuldurlar. Biri siyasəti, digəri iqtisadiyyatı, bir başqası mədəniyyəti... "Yeni Müsavat" isə köşələri ilə minlərlə oxucunun fikrini formalaşdıran qələm adamlarından 2014-ü soruşdu: bu il necə keçdi, nəylə yadda qaldı və sizin üçün ilin adamı kimdir?**

**"Yeni Müsavat"ın yazarı Azər Rəşidoğlu** bildirdi ki, Azərbaycan 2014-cü ildə demokratiyanın boğulması istiqamətində iri addımlarla irəlilədi: "Ölkədə "üçüncü sektor" tamamilə dağıdıldı, prinsipial hüquq müdafiəçiləri həbs edildi, mətbuata təzyiqlər son 20 ildə ən pik nöqtəsinə çatdı. Ölkədə demokratik mətbuatın son qalacıqları məhv edilməyə başlanıldı. "Ayna- Zerkalo" qəzetinin bağlanılması, "Azadlıq", "Yeni Müsavat" qəzetlərinin sıradan çıxardılması üçün atılan addımlar, qəzet satışının faktiki olaraq sıradan çıxardılması "dördüncü hakimiyyət"in can verdiyinin xəbərçisi hesab oluna bilər. Ölkədə hakimiyyətdən narazı olan bütün ictimai fəallar, tanınmış hüquq müdafiəçisi Leyla Yunusdan tutmuş, İntiqam Əliyevə qədər hər kəs həbs edildi. Seçki ekspertləri, gənc fəallar, jurnalistlər azadlıqdan məhrum edildi. Rauf Mirqədirovun dövlətə xəyanətdə ittiham olunması absurdun son həddi idi".

**Müsahibimiz dedi ki, 2014-cü ildə sıra ilahiyyatçı alimlərə də çatıb. Belə ki, Elşən Mustafaoğlunun həbsi heç bir məntiqə sığmır:** "Ən acınacaqlısı isə odur ki, ölkədə həbs edilməyən və yaxud proseslərdən uzaqlaşdırılmayan bir nəfər də vicdanlı vəkil qalmayıb".

A.Rəşidoğlu həbsdəki jurnalist Rauf Mirqədirovu "ilin adamı" hesab etdiyini dedi.

**"Yeni Müsavat"ın köşə yazarı Zamin Hacı da hesab edir ki, 2014-cü il Azərbaycan adına olduqca pis keçib:** "Hamını doldurublar türmələrə. Repressiyalar daha çox artıb. Ukrayna, bölgə üçün də problemli dönəm olub. Yayda atəşkəsin pozulması nəticəsində əsgərlərin ölməsi də pis hadisələrdən idi. 2014-cü ildə YAP-ın hakimiyyətdə olduğu uğursuz, itirilmiş illərdən biridir. Bu ili biz itirmişik, heyf olmuş ildir".

**Z.Hacı hesab edir ki, qlobal miqyasda götürəndə 2014 Rozatte kosmik aparatının kometa enişi ilə yadda qalır:** "Bu, bəşəriyyət tarixində ilk idi. Ona görə də ilin hadisəsini Rozette kosmik aparatı hesab edirəm".

**"Azadlıq" qəzetinin yazarı Elnur Astanbəyli 2014-cü ili ictimai mənada dəyərləndirəndə onun çox ağır keçdiyini bildirdi:** "Daha çox həbslərlə yadda qaldı. Azərbaycanda olub-qalan nəfəsliklərin də bağlanması, demokratiya, azadlıq adına son işartıların söndürülməsi ilə yadda qaldı. Əvvəlki illərə nisbətən ümidlər bir az da öləzidi. Son illəri tariximizin ən ağrılı, dəhşətli illərindən biri kimi qiymətləndirirəm. Getsin, bir də gəlməsin".

**Müsahibimiz bu il ikinci kitabının çapdan çıxdığını xatırlatsa da, şəxsi sevinclərini yaşamağa imkanı olmadığını dedi:** "Günümüz məhkəmənin, polis bölməsinin qarşısında, dostlarımızın həbs xəbərləri ilə keçdi. Ona görə də mən bu il həbs olunan bütün azad fikirli insanları ilin adamı hesab edirəm. Azərbaycanda həbsxana anlayışı da şərtiləşib. İçəri ilə çölün arasında böyük fərq qalmayıb".

❑ Sevinc TELMANQIZI



## Şahvələd Çobanoğlu Ağır Cinayətlər İdarəsində ifadə verib

Yazar ""Fərqli Düşüncə" dərgisinə, fərqli düşündüyümə görə ittiham oluna bilərəm" deyir

**Dekabrın 23-də tanınmış yazar Şahvələd Çobanoğlu Respublika Prokurorluğunun Ağır Cinayətlər İdarəsinə çağırılıb. Bu barədə Ş.Çobanoğlu facebook səhifəsində xəbər verib: "Adı bilinməyən, bizə yalnız nömrəsi deyilən, vətəndaş cəmiyyətinə və QHT-lərə qarşı aparılan cinayət işinin çərçivəsində məndən ifadə aldılar. Mövzu AzadlıqRadiosundan mənim hesabıma köçürülən pullar barədə idi. Köçürülmə nəşri çoxdan dayanmış "Fərqli Düşüncə" dərgisinin çapı və yayımı ilə bağlı olub. Hər şey qanuni və şəffafdır".**

"Bunlar axırını nəyə yönəldəcəklər, özləri bilərlər" yazan Ş.Çobanoğlu onu da vurğulayıb ki, bütün hallarda "Fərqli Düşüncə"yə görə, fərqli düşündüyünə görə ittiham oluna bilər.

## Avrasiya İttifaqı bir az da genişləndi

**Dekabrın 23-də Moskvada Avrasiya Ali İqtisadi Şurasının iclası keçirilib. "Mediaforum" saytının məlumatına görə, iclasda Qırğız Respublikasının Avrasiya İqtisadi İttifaqına qoşulması haqda müqavilə imzalanıb.**

İclasdan sonra mətbuat konfransı keçirən Rusiya prezidenti Vladimir Putin deyib ki, Ermənistanın və Qırğız Respublikasının Avrasiya İqtisadi İttifaqına qoşulması bu ölkələrin milli maraqlarına tam uyğundur.

Rusiya prezidenti bəyan edib ki, 2015-ci ildə Avrasiya İqtisadi İttifaqına Belarus sədrlik edəcək.

Avrasiya İqtisadi İttifaqını bu il mayın 29-da Rusiya, Qazaxıstan, Belarus yaradıblar. Ermənistanın bu ittifaqa qoşulması haqqında müqavilə Avrasiya Ali İqtisadi Şurasının oktyabrın 10-u Minskdə keçirilən sammitində imzalanıb.

## Avropa Oyunlarına 1,3 milyard manat xərclənəcək

**Azərbaycan hökuməti 2015-ci ildə Bakıda keçiriləcək Avropa Oyunlarına 1,3 milyard manat xərcləyəcək. Bu barədə prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsi haqqında" fərmanda bildirilir.**

Bu məbləğ Bakı şəhərində birinci Avropa Oyunlarının keçirilməsi üçün idman infrastrukturlarının yaradılması, hazırlıq və digər təşkilatı işlər üçün ayrılacaq.

## Ağcabədidə azan qadağasına reaksiya gəldi

**"Yeni Müsavat" qəzetinin ötən saylarında Ağcabədidə yaşayan dindarların aksiya keçirməyə hazırlaşması ilə bağlı xəbər dərc olunub. Belə ki, redaksiyaya müraciət edən bir qrup rayon dindarı rayonda yüksək səslə azan oxunmasına qadağa qoyulduğunu və buna etiraz olaraq aksiya keçirməyə hazırlaşdığı bildirirdilər.**

Şikayətçilər məsciddə azan verilməsinə qadağanın Ağcabədi rayonunun icra başçısı Şahin Məmmədov tərəfindən qoyulduğunu qeyd ediblər. Belə ki, icra hakimiyyətindən verilən göstərişdə yüksək azan səsinin seçkilərlə bağlı Ağcabədiyə gələn qonaqları narahat etdiyi vurğulanıb. Dindarlar şikayətlərini yuxarı orqanlara çatdırmaq üçün "Yeni Müsavat" qəzetindən kömək istəyiblər.

Ötən gün redaksiyaya Ağcabədi şəhər cümə məscidi icmasının sədri Novruz İsmayılovun adından teleqram daxil olub. Teleqramda qeyd olunur ki, azanın səsgücləndirici vasitəsilə verilməsinin dayandırılması barədə məscid rəhbərliyinə və dindarlara Ağcabədi Rayon İcra Hakimiyyəti başçısı tərəfindən heç bir formada tapşırıq və göstəriş verilməyib: **"Dindarların adından gedən yazı qərəz məqsədilə yazılıb, şər və böhtan xarakterlidir".**

Qeyd edək ki, teleqram burda bitir, ancaq icma sədri qəribə də olsa, hazırda azanın verilib-verilmədiyinə aydınlıq gətirmir. Bununla belə, redaksiya məscid icması sədrinin mövqeyini dərc etməyi özünə borc bilir.

❑ KƏNAN

## Başçı müavini icra hakimiyyətindəki ölümlə bağlı danışdı

**Şahin Məmmədov:** "Ömrü o qədər idi..."

**Yasamal Rayon İcra Hakimiyyətində dekabrın 19-da baş verən ölümlə bağlı məlumat vermişdik. Həmin məlumatda bildirilirdi ki, Yasamal Rayon İcra Hakimiyyətinin binasında keçirilən iclas zamanı fizika və riyaziyyat təmayüllü liseyin müəllimi, 1949-cu il təvəllüdlü Allahverdi Məmmədovun ürəyi sıxılıb. Ətrafdakılar müəllimə yardım etmək istəsələr də, buna nail olmayıblar. Müəllim vəfat etdikdən sonra onun meyitini balkona qoyaraq (!?) iclası davam etdiriblər.**

"Hüquqi Dövlət" Araşdırmalar Mərkəzinin rəhbəri Müzəffər Baxışa müraciət edib icra hakimiyyəti səlahiyyətlilərinin hərəkətlərində hüquqi məsuliyyət yaradan məqamların olub-olmaması ilə maraqlandıq. M.Baxış dedi ki, A.Məmmədovun ürəyində problem olubsa, burada hüquqi məsuliyyətdən söhbət gedə bilməz: "Burada mənəvi, əxlaqi məsuliyyətdən söhbət gedir. Adamı iclasa dəvət ediblər və o, orada vəfat edib. Bundan sonra iclasın davam etdirilməsi əxlaqi nöqteyi-nəzərdən qüsurludur".

**Yasamal Rayon İcra Hakimiyyəti başçısının müavini Şahin Məmmədov isə "Yeni Müsavat"a deyib ki, olay iclas başlamazdan əvvəl baş verib. O, müəllimin ölümündən sonra onun meyitinin eyvana qoyularaq iclasın davam etdirilməsini təkzib etdi:** "Çox vicdanlı, saf insan idi. Ömrü o qədər idi".

**Başçı müavini müəllimin bələdiyyə seçkiləri ilə bağlı iclasa dəvət olunmasının məqsədini də açıqladı:** "Burada heç bir qəbahət yoxdur. Seçkinin keçirilməsi üçün müəyyən olunmuş bütün şəraitin yaradılması, məntəqənin yerləşdirilməsi, fəaliyyətinin təşkili qanunla, Seçki Məcəlləsi ilə həm icra hakimiyyəti, həm də məntəqənin yerləşdiyi müəssisənin rəhbərinin səlahiyyətlərinə aid edilib".

Ş.Məmmədov müəllimin icra hakimiyyətinin binasında dünyasını dəyişməsi faktına görə Yasamal Rayon Prokurorluğunda araşdırma aparıldığını bildirdi. Qeyd etdi ki, araşdırma ilə bağlı kimsə dindirilməyib.

❑ E.MƏMMƏDƏLİYEV

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**